XARİCİ İŞLƏR ÜZRƏ
FEDERAL DEPARTAMENT, İSVEÇRƏ

# Ön söz

"Liderlik imkanlarının hüdudları: Dağlıq Qarabağ sülh prosesində elita və cəmiyyətlərin rolu" adlı nəşr Barışıq Resursları təşkilatının əzmlə və qətiyyətlə çəkdiyi böyük zəhmətin bəhrəsidir. Dağlıq Qarabağ münaqişəsini həll etməyə yardımçı olan bu icmalın başlıca xüsusiyyəti münaqişənin və təkliflərin konstruktiv mahiyyəti ilə bağlı fikir müxtəlifliyini əks etməsindədir. Bu cür fərqli mövqelər nəşrin açıq olmasına dəlalət edir və, ümidvaram ki, ermənilər və azərbaycanlılar arasında faydalı və məntiqli diskussiyalara səbəb olacaq. Uzunmüddətli perspektivdə belə debatlar münaqişənin bütün tərəfləri arasında daha konstruktiv dialoq üçün zəmin yaradacaq.

Təmsil etdiyim ölkə - İsveçrə xalqlar və millətlər arasında dialoq tərəfdarıdır və münaqişələri həll etmək üçün yeganə legitim vasitə kimi dialoqu görür. Əminəm ki, yalnız ermənilər və azərbaycanlılar arasında fəal mübadilə və bu xalqların nümayəndələrinin vicdanlı və ardıcıl müzakirələri üzərində qurulmuş sülh prosesi Dağlıq Qarabağ probleminin həllinə yol açacaqdır.

Bundan əlavə, müəlliflərin qeyd etdiyi kimi, qarşı tərəfin öz tarixi və vəzifələrinə olan qərəzli münasibəti Dağlıq Qarabağ münaqişəsinin başlanmasında və qızışmasında həlledici rol oynamışdı. Bu topluda əks edilən mövqe və rəylər hər iki tərəfə qərəzlərini kənara qoyub əks düşərgənin gerçəkliklərini, o cümlədən qaçqınlığın əzablarını, təqib olunma qorxusunu və münaqişənin tənzimlənməsi yollarındakı maneələri daha yaxşı anlamağa kömək edə bilər.

Bu məqalələr həmçinin barış şərtləri və kompromis məsələləri ilə bağlı müzakirələrə təkan verməlidir. Aydındır ki, çoxları güzəştə getməyi zəiflik nişanəsi kimi qəbul edir, bəziləri isə bunu hətta ömürlərində ən vacib işdən imtinaya bərabər tuturlar. Lakin Cənubi Qafqaz üçün yeganə mümkün variant sülhün qələbəsidir. Bunu əldə etmək üçün həm ermənilər, həm azərbaycanlılar kompromis yoluna çıxıb hamını qane edən çözümə nail olmalıdırlar.

Sülh prosesinin irəliləməsində ATƏT-in və Minsk Qrupunun müstəsna rolunu xüsusilə qeyd etmək lazımdır. Bu iş olduqca mürəkkəbdir və təəccüblü deyil ki, bəziləri bu işdən ümidlərini kəsiblər, lakin əminəm ki, belə formatda aparılan danışıqlar Dağlıq Qarabağ münaqişəsinə son qoyan sazişlə nəticələnə bilər. Vətəndaş cəmiyyətləri daxilində və arasında aparılan dialoq sayəsində əldə ediləcək razılaşma əhalinin dəstəyini qazana bilər.

Ümidvaram ki, bu məqalələri oxuyub onlara tənqidi yanaşacaqsınız. Sizə faydalı diskussiyalar arzulayıram!

*Mişelin Kalmi-Rey*

Federal Kansler,

Xarici İşlər üzrə Federal Departamentin başçısı,

İsveçrə